**AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT STATİSTİKA KOMİTƏSİ**

# Q Ə R A R

**№ 41/18**

**Bakı şəhəri** **18 noyabr 2024-cü il**

## "Yol hərəkəti və onun təhlükəsizliyi göstəriciləri haqqında" 2 №-li (DYP) rüblük rəsmi statistika hesabatı forması və onun doldurulmasına dair göstəriş haqqında" Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2013-cü il 26 fevral tarixli 9/09 nömrəli qərarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 24 iyun tarixli 115 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi haqqında Əsasnamə"nin 9.6-cı və 14.4-cü bəndlərini rəhbər tutaraq Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

**qərara alır:**

1. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2013-cü il 26 fevral tarixli 9/09 nömrəli qərarı ilə təsdiq edilmiş "Yol hərəkəti və onun təhlükəsizliyi göstəriciləri haqqında" 2 №-li (DYP) rüblük rəsmi statistika hesabatı formasının təqdimetmə qaydalarını əks etdirən hissəsi aşağıdakı redaksiyada verilsin:

"Hesabat aidiyyəti üzrə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi Baş Dövlət Yol Polisi İdarəsi, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi və Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən hesabat dövründən sonrakı ayın 15-dək elektron formada Dövlət Statistika Komitəsinin internet səhifəsində (www.stat.gov.az) real vaxt rejimində təqdim edilir.".

2. Qərar qəbul edildiyi gündən üç gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim edilsin.

3. Aparatın Xidmət statistikası şöbəsinə tapşırılsın ki, bu qərardan irəli gələn məsələləri həll etsin.

4. Qərarın icrasına nəzarət Statistika işlərinin əlaqələndirilməsi və strateji planlaşdırma şöbəsinə həvalə olunsun.

**Sədrin səlahiyyətlərini müvəqqəti**
**icra edən, sədrin birinci müavini** **Vahab Məmmədov**